*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 3, s.95-99*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 3, p.95-99*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 3, с.95-99*

**UOT: 82-912:821.161.1**
https://doi.org/10.30546/670832.2025.02.1268

# "Sizi deyib gəlmişəm" əsərində Mirzə Cəlil ideyalarına müasir yanaşma

**Müəllif(lər):**

**Həsənəli Eyvazlı**
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
**E-poçt:** HasanaliEyvazov@nmi.edu.az

**Açar sözlər:** xalq yazıçısı Anar, M.Cəlil, Azərbaycan ədəbiyyatı, XX əsr, 60-cı illər

**Annotasiya.** Məqalədə Anarın "Sizi deyib gəlmişəm" pyesində Mirzə Cəlil ideyalarına müasir ədəbi yanaşma təhlil edilmişdir. Pyesdə Mirzə Cəlil obrazı, onun yaratdığı simvollar və "Molla Nəsrəddin" jurnalının personajları qarşılıqlı təsir vasitəsilə təqdim olunur. Anar mənəvi müəllimi Mirzə Cəlilin əsərlər toplusunun ruhunu qoruyaraq, XX əsrin əvvəllərindən 60-70-ci illərə qədər uzanan sosial və ideya mesajlarını yeni dramaturji priyomlarla oxucuya çatdırır. Hadisələrin dramatik inkişafı, obrazların dialoqları və son monoloqlar vasitəsilə xalqın cəhalətə, ədalətsizliyə və zülmə qarşı mübarizəsi, milli özünüdərk və sosial ədalət məsələləri ön plana çıxarılır. Pyesdə Anarın öz sözünün olmaması, lakin Mirzə Cəlilin əsərlərindəki ideyaların dolğun şəkildə işlənməsi intertekstual yanaşmanın əhəmiyyətini göstərir. Məqalədə həmçinin pyesin tarixi-konseptual konteksti, sosial-psixoloji aspektləri və dramatik struktur analizi təqdim edilmiş, Anarın Mirzə Cəlil irsinə sadiqliyi ilə yanaşı, ideya-məzmun yaxınlığını qoruyaraq milli-mənəvi dəyərləri yeni nəsillərə çatdırmaq bacarığı vurğulanmışdır. Nəticələr göstərir ki, "Sizi deyib gəlmişəm" əsəri yalnız keçmiş ədəbi irsin müasir oxucuya təqdimatı deyil, həm də milli-mənəvi, sosial və ideya baxımından ədəbiyyat tarixində xüsusi əhəmiyyətə malikdir.

**Author(s):**

**Hasanali Eyvazli**
Nakhchivan Teachers Institute
PhD on Philology, Associate Professor
**E-mail:** HasanaliEyvazov@nmi.edu.az

**Key words:** writer Anar, Mirza Jalil, Azerbaijani literature, 20th century, 1960 s

## A contemporary approach to Mirza Jalil's ideas in the work "Sizi deyib galmisham"

**Abstract.** The article analyzes the contemporary literary interpretation of Mirza Jalil's ideas in Anar's play "Sizi deyib galmisham". In the play the character of Mirzə Cəlil, his created symbols and the figures from the "Molla Nəsrəddin" magazine are presented through mutual interaction. Anar as a spiritual successor of Mirza Jalil preserves the essence of his literary works while conveying the social and ideological messages spanning from the early 20th century to the 1960s–70s using new dramaturgical techniques. Through the dramatic development of events, characters' dialogues and final monologues the play emphasizes the people's struggle against ignorance, injustice and oppression as well as issues of national self-awareness and social justice. Although Anar's own voice is absent in the play, the complete treatment of Mirza Jalil's ideas demonstrates the significance of an intertextual approach. The article also presents the play's historical-conceptual context, socio-psychological aspects and dramatic structure analysis. Anar's fidelity to Mirza Jalil's legacy and his ability to convey national-moral values to new generations while maintaining ideological and thematic proximity are cleared. The findings indicate that "Sizi deyib galmisham" is not only a contemporary presentation of past literary heritage but also holds special significance in Azerbaijani literary history in terms of national-moral, social and ideological dimensions.

**Автор(ы):**

**Гасанали Эйвазлы**
Нахчыванский институт учителей
Доктор философии по филологии, доцент
**Э-почта:** HasanaliEyvazov@nmi.edu.az

**Ключевые слова:** народный писатель Анар, Мирза Джалил, азербайджанская литература, XX век, 60-е годы

## Современный подход к идеям Мирзы Джалила в произведении «Сизи дейиб гялмишям»

**Аннотация.** В статье анализируется современный литературный подход к идеям Мирзы Джалила в пьесе Анара «Сизи дейиб гялмишям» («Я пришел с мыслями о вас»). В произведении образ Мирзы Джалила, созданные им символы и персонажи журнала «Молла Насреддин» представлены через систему взаимного художественного взаимодействия. Сохраняя духовную атмосферу творческого наследия своего наставника, Анар посредством новых драматургических приемов передает читателю социальные и идейные послания, охватывающие период от начала XX века до 60–70-х годов. Через драматическое развитие событий, диалоги персонажей и финальные монологи на первый план выдвигаются вопросы борьбы народа с невежеством, несправедливостью и угнетением, национального самосознания и социальной справедливости. Отсутствие авторского слова Анара при глубокой художественной разработке идей Мирзы Джалила подчеркивает значимость интертекстуального подхода. В статье также представлен анализ историко-концептуального контекста пьесы, ее социально-психологических аспектов и драматической структуры, акцентирована способность Анара сохранить идейно-содержательную близость к наследию Мирзы Джалила и донести национально-духовные ценности до новых поколений. Результаты исследования свидетельствуют о том, что произведение «Сизи дейиб гялмишям» является не только современной интерпретацией классического литературного наследия, но и значимым явлением в истории литературы с национально-духовной и социально-идейной точки зрения.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, XX əsrin 60-illərində ədəbiyyata gələn xalq yazıçısı, əməkdar incəsənət xadimi Anar ədəbiyyat tariximizin ona qədərki sovet ideoloji baxışlarına son qoymağı bacaran, özündən sonra gələn yeni ədəbi nəsil üçün örnək olan sənətkarlarımızdan biridir.

Onun "Bayram həsrətində", "Yağış kəsdi" və 1970-ci illərdə böyük oxucu rəğbəti ilə qarşılanan, lakin dövrün ideoloji buxovlarından qurtara bilməyənlər tərəfindən xoş qarşılanmayan, tənqidə və mübahisələrə səbəb olan "Molla Nəsrəddin-66" novellalar toplusu müəllifə özünütəsdiq yolunun qapılarını açdı.

Böyük Mirzə Cəlil yaradıcılığına və üslubuna dərindən bələd olan yazıçı Anar "Molla Nəsrəddin-66" əsəri ilə sanki yeni ədəbi eranın başlandığını xəbər verirdi. Zamanın eybəcərliklərini qamçılayan bu novellalar silsiləsindən sonra "Yaxşı padşahın nağılı", "Şəhərin yay günləri", "Adamın adamı", "Qaragilə", "Keçən ilin son gecəsi", "O gecənin səhəri", "Anlamaq dərdi" və neçə-neçə böyük və kiçik həcmli əsərlərində də əvvəlki fikir və düşüncələrinə sadiq qalaraq insanlara milli özünüdərk fikirləri aşılayırdı.

"Sizi deyib gəlmişəm" pyesi Mirzə Cəlillə Anarın arzu və istəklərinin, ideyalarının yetmiş illik məsafədəki boşluğunu doldurmağa xidmət edən bir əsər kimi meydana gəldi. "Molla Nəsrəddin-66" və "Qaravəllilər"dən fərqli olaraq "Sizi deyib gəlmişəm" əsərində Anar mənəvi müəllimi Mirzə Cəlilin əsərlər toplusunun qayəsini, ruhunu saxlamaqla yeni, daha orijinal bir əsər yaratmışdır.

S.S.Axundovun "Molla Nəsrəddin Bakıda" pyesində olduğu kimi, Anarın "Sizi deyib gəlmişəm" əsərində də Mirzə Cəlil bir obraz kimi özünün yaratdığı surətlərlə qarşılaşır. Lakin "Sizi deyib gəlmişəm" əsərində hadisələrin gedişini idarə edənlər bir zamanlar "Molla Nəsrəddin" jurnalındakı gizli ləqəbləri olan Lağlağı, Mozalan və Hərdəmxəyal və bir də Mirzə Cəlilin özüdür. Pyes Anar tərəfindən yazılsa da, burada müəllifin öz sözü yoxdur. C.Məmmədquluzadənin əsərlərindəki müxtəlif hadisələrin ümumi toplusu və Mirzə Cəlilin (Lağlağı, Mozalan və Hərdəmxəyalın), Sabirin, Ömər Faiqin iştirakı ilə hadisələr "Danabaş kəndinin məktəbi", Mirzə Cəlilin felyetonları, məktubları, xatirələri, bir sıra sənədlər və tədqiqat araşdırmaları əsasında inkişaf etdirilir. Müəllif orijinal bir yolla getmiş, XX əsrin əvvəllərində qələmə alınmış hadisələri 60-70 il sonraya daşımış və zamanı qamçılayan Mirzə Cəlil ideyasını yenidən ortaya qoymuşdur:

Lağlağı - (Molla Nəsrəddinə müraciətlə) Görmə!

Molla nəsrəddin - (əliylə gözlərini yumur) Baş üstə, yumuram gözlərimi!

Mozalan - Dinmə!

Molla Nəsrəddin - (əliylə ağzını tutur) mütiəm kəsərəm sözlərim.

Hərdəmxəyal - Bir söz eşitmə!

Molla Nəsrəddin - (qulaqlarını qapayır) Qulağım bağlaram.

Lağlağı - Gülmə!

Molla Nəsrəddin - Pəkey, şamu-səhər ağlaram.

Molla Nəsrəddin:- Bacarmam! Məni məzur tut.

Böyləcə təklifi - məhalı unut!

Qabili - imkanmı olur qanmamaq,

Məcməri - nar içrə olub yanmamaq? [1, s. 196].

Müəllifin əsəri, hər nə desən qəbul edərəm, amma qanmamağı bacarmaram - fikri ilə başlaması təsadüfi deyildir. Çünki əsrin əvvəlində görmə, dinmə, qanma deyənlər 60-70-ci illərdə də mövcud idi. Anarın sənətkarlığı akademik İsa Həbibbəylinin təbiri ilə desək: "XIX əsrin sonu, XX əsrin başlanğıc illərinin hadisə və ideyalarını yetmişinci illərdə bu yeni mərhələnin sanki olmuş əhvalatları və düşüncəsi kimi səsləndirməyi bacarmaqdan ibarətdir" [2, s.284].

Pyesdə C.Məmmədquluzadə dövrünün eybəcərlikləri, əsərlərində əks olunan avamlıq, nadanlıq, cahillik və dini cəhalətin gətirdiyi bəlalar dağınıq halda deyil, bütöv halda təqdim olunur ki, bu da əsərə ümumi halda bir bitkinlik, müsbət mənada ağırlıq gətirir. Burada şit gülüş yox, tərbiyəedici, düşündürücü gülüş vardır. Anarın da bir yazıçı kimi məqsədi müasir dövrün ictimai baxışında düşündürücü gülüş hədəfini qabartmaqdır. Məgər XX əsrin əvvəllərində olan xudayar bəylər, zeynəblər, məhəmmədhəsən əmilər 70-ci illərdə yox idimi? Zaman dəyişmişdi, savadsızlıq ləğv edilmişdi, lakin ictimai eybəcərliklər olan alıb-aldadanlar, özgənin varına, puluna göz tikənlər, öz xoşbəxtliyini özgələrin bədbəxtliyi

üzərində quranlar yenə də vardı. Mirzə Cəlilin XX əsrin əvvəllərində yazdıqları, əsrin 70-ci illərində yeni qaydada təkrar olunurdu və Anar da yeni bir ədəbi priyomla xalqı öz keçmişini unutmamağa, əksinə keçmişdən nəticə çıxarmağa çağırırdı:

Mirzə Cəlil:- İki il bundan irəli Zeynəbin əri Kərbalayi Heydər ölüb. Qalıbdı bir oğlu Vəliqulu, on yeddi yaşında, iki də qızı: biri yeddi yaşında, biri dörd yaşında.

(Səkinə Zeynəbin otağına gəlir)

Səkinə - Bıy, ay qız sən yenə ağlayırsan?

Zeynəb - Bə mən ağlamayıb neyləyim, a Səkinə bacı?

...Səkinə -Niyə elə deyirsən, ay qız, Xudayar bəy ölüb eləməyib ki... [1, s.206].

Məlum olur ki, Xudayar bəy Kərbəlayi Heydərin var-dövlətinə sahib olmaq üçün zorla da olsa Zeynəblə evlənməlidir. Ona Zeynəb yox, pul lazımdır. Hadisənin sonunda Xudayar bəy qazıya rüşvət verərək Zeynəbdən xəbərsiz onu özünə siğə etdirir, ərindənqalma var-dövləti ələ keçirib Zeynəbi də küçəyə atır.

Zəmanə Mirzə Cəlili də əzməyə, məhv etməyə qadirdir. Çünki xalqı idarə edən ruhanilərdir, onların arxasında isə cahillər, "Molla Nəsrəddin"in tənqid etdiyi nadanlar, qoçular, kəmsavad bəylər durur:

Birinci ruhani:-Həzarat! Mən danışmaq istəməzdim. Lakin, dinim, məsləkim məni danışmağa vadar edir. Bir nəfər şəxs çıxıb ortalığa, Tiflisdə "Molla Nəsrəddin" adına məcmuə çıxardır. İndiyə kimi hər nə cəfəngiyat yazıb, onunla işim yoxdur. Ancaq axır vaxtlarda islamın kökünə balta vurmağa başlayıb. Daha buna davam gətirmək olmaz. Bunun müqabilində bir tədbir lazımdır.

...Ruhanilər - Lənət, lənət! Min lənət!

Mirzə Cəlil - Heç bir fikir sahibinə demək olmaz ki, qandığını at, mən qandığımı tut. Heç bir şairə demək olmaz-elə yazma, belə yaz. Altı ildir yazırıq və altı ilin ərzində yazdığımız sözləri bu saat yenə min dəfə təsdiq edirik. Oxucularımız dağılıb bircə nəfər qalınca yazacağıq, yazacağıq! [1, s.222-223].

Müəllif əsərin sonunda Tiflis general-qubernatorunun Mirzə Cəlilin min əziyyətlə ərsəyə gətirərək nəşr etdirdiyi "Molla Nəsrəddin" jurnalını bağlatdırdığını göstərir:

Səs: Mən Tiflis general-qubernatoru Tiflisdə nəşr olunan "Molla Nəsrəddin" jurnalında təzahür edən son dərəcə zərərli cərayanı nəzərə alaraq qərar verdim: məcmuə qapadılsın!

(jandarmalar səhnədəki işıqları bir-bir keçirirlər)

Mirzə Cəlil:-(acı kinayəylə) Çox bərk işıq da bir şey deyilmiş, adamın gözünü qamaşdırır.

Yalnız Mirzə Cəlilin masası üzərindəki çıraq yanır, jandarmalar yanaşıb bu işığı da söndürürlər.

Mirzə Cəlil:-(sonsuz ağrı ilə) zülmət çox dərindir. Qaranlıq nəhayət qalındır [1, s.244].

"Molla Nəsrəddin" jurnalının bağlanması ilə xalqın cəhalətin qaranlıq girdabından qurtarmasına ümid qapısının bağlandığını, Mirzə Cəlilin masası üzərindəki çırağın sönməsi ilə isə təkcə Mirzə Cəlilin deyil, onun məsləkdaşlarının da xalq yolunda yandırdığı çırağın söndürüldüyünü bildirir.

Nə idi mollanəsrəddinçilərin amalı? Müəllif pyesdəki hadisələrin ardıcıllığında bu fikri açmağa çalışır və sonda yenə də Mirzə Cəlilə müraciət edir, onun son monoloqunda millətin millətlər içərisində yox olmaq təhlükəsinin yarandığı qənaətinə gəlir:

Mirzə Cəlil:- Dünyalar titrədi. Aləmlər mayallaq aşdı, millətlər yuxudan ayılıb gözlərini açdılar və pərakəndə düşmüş qardaşlarını tapıb, dağılmış evlərini bina eləməyə üz qoydular. Bəs sən hardasan, ay biçarə vətən? Ax unudulmuş vətən! Gəlin, gəlin ey unudulmuş vətənin cırıq-mırıq qardaşları! Gəlin, görək beşikdə yad millətlərin südünü əmmiş, vətənimizdən yadırğamış və millətimizin ruhundan xəbərsiz bir para millət başçılarımız sizə nə gün ağlayacaqlar? Niyə sakitsiniz, ey mənim lüt-üryan qardaşlarım? Sizi deyib gəlmişəm! Sizi deyib gəlmişəm! [1, s.245].

SSRİ deyilən bir məkanda ögey münasibət bəslənən, unudulan var-yoxu özgələr tərəfindən daşınıb aparılan, kasıb bir bölgəyə çevrilən vətənin acı taleyi Anarın bu mövzuya müraciət etməsinə səbəb oldu. Professor Nizami Cəfərovun dediyi kimi: "O zaman normativ ədəbiyyatşünaslıq belə bir yanlış təsəvvür yaratmağa çalışırdı ki, guya Anar (eləcə də 60-cılar) xırda adamları ideallaşdırır, xoşbəxt (!) həyatımızın bəzi çətinliklərini, problemlərini subyektiv bir şəkildə qabardır, kölgəli cəhətlər axtarır(lar)" [3,s.6].

Axı 1926-cı ildə C.Məmmədquluzadə də

"Dəli yığıncağı"nı yazanda bu hissləri yaşamışdı. Fərq ondadır ki, C.Məmmədquluzadə "Dəli yığıncağı"nda məkanı dəyişdiyi halda, Anar öz sözlərini yaşadığı məkan daxilində dedi. Sanki müəllif 70-ci illərdə "millətimizin ruhundan xəbərsiz bir para millət başçılarımız sizə nə gün ağlayacaqlar?" – sualına 1988-1992-ci illərdə tarixin özünün cavab verəcəyini hiss etmişdi.

Anarın "Sizi deyib gəlmişəm" pyesi dünənimizdən bu günümüzə və sabahımıza çağırışdı. "Anarın bir yazıçı kimi daxil olduğu 60-70-ci illər ədəbi nəslinin Cəlil Məmmədquluzadə irsinə, ümumiyyətlə "Molla Nəsrəddin" məktəbinə yalnız üslub cəhətdən bağlılığını iddia edənlər yanılırlar. Əslində bu bağlılığın əsasında sırf ideal məsələsi – xalqın özünüdərk probleminə yanaşmadakı ruh yaxınlığı dayanır" [4, s.12].

"Sizi deyib gəlmişəm" əsərində hadisələrin dramatik inkişafı təssüfləndirici bir sonluqla - "Molla Nəsrəddin" jurnalının bağlanması ilə sona çatır. Yenidən aləmi qaranlıq bürüyür. Lakin müəllif, bu qaranlıq içərisində Mirzə Cəlilin son monoloqunu verməklə, xalqın gələcəyə ümidlə baxması ideyasını önə çəkir, özgə millətlər kimi, dağılmış vətəninə sahib çıxmağı tövsiyə edir.

**Material və metodlar.** Araşdırmanın materialı Anar tərəfindən yazılmış "Sizi deyib gəlmişəm" pyesi və Mirzə Cəlil, C. Məmmədquluzadə, S.S. Axundov, Sabir, Ömər Faiq və digər Azərbaycan klassik ədəbiyyatı nümayəndələrinin əsərləri, eləcə də əsərlərə dair tədqiqat və monoqrafiyalar təşkil etmişdir (Anar, 1984; Həbibbəyli, 2007; Cəfərov, 2004; Rahid, 2004). Məqalədə həmçinin "Molla Nəsrəddin" jurnalının materialları, felyetonlar, xatirələr və arxiv sənədləri tədqiqat obyekti kimi istifadə olunmuşdur.

Tədqiqatın aparılması zamanı elmi-təhlili və müqayisəli metodlar, tarixi-konseptual yanaşma, eləcə də məzmun və dramatik struktur analizi tətbiq edilmişdir. Məqalədə Anarın pyesində Mirzə Cəlil ideyalarının və obrazlarının interpretasiyası, onların XX əsrin əvvəlləri ilə 60-70-ci illər ədəbi kontekstində müqayisəsi həyata keçirilmişdir. Analiz əsasında hadisələrin dramatik inkişafı, obrazların sosial və mənəvi funksiyaları, müəllifin ideya və mesajı, eləcə də tarixi və sosial-psixoloji aspektlər araşdırılmışdır.

Beləliklə, material və metodlar seçimi əsərin ideya-məzmun və dramaturji xüsusiyyətlərini elmi əsaslarla təhlil etməyə imkan vermiş, Anarın Mirzə Cəlil yaradıcılığına müasir yanaşmasının təsirini sistemli şəkildə ortaya qoymuşdur.

**Nəticə və müzakirə.** Aparılmış tədqiqat göstərir ki, Anarın "Sizi deyib gəlmişəm" pyesi Mirzə Cəlil ideyalarının XX əsrin əvvəllərindən 60-70-ci illərə qədər uzanan inkişafını əks etdirən müasir ədəbi nümunədir. Əsərdə Anarın Mirzə Cəlilin yaradıcılığına səmimi münasibəti, ideyalarını qoruyaraq, onları yeni dramaturji priyomlarla təqdim etməsi diqqət çəkir. Pyes boyu Mirzə Cəlil obrazının öz əsərlərində yaratdığı simvollar və "Molla Nəsrəddin" jurnalının digər personajları ilə qarşılıqlı təsiri göstərilir, beləliklə, ideyaların zaman və məkan fərqinə baxmayaraq aktual olduğu vurğulanır.

Müzakirə nəticəsində müəyyən edilmişdir ki, əsərin sosial-psixoloji aspektləri Anarın dramaturgiyasında mərkəzi yer tutur. Xalqın cəhalətə qarşı mübarizəsi, ədalətsizlik və zülmə qarşı çıxış yalnız tarixi kontekstdə deyil, həm də müasir oxucu üçün mənalı şəkildə təqdim edilmişdir. Pyesdə dramatik gediş, obrazların dialoqları və son monoloqlar vasitəsilə ideya, sosial ədalət və milli özünüdərk mesajları aydın çatdırılır. Anarın yanaşmasında müəllifin öz sözünün olmaması, lakin Mirzə Cəlilin əsərlərindəki fikirlərin dolğun şəkildə işlənməsi intertekstual yanaşmanın vacibliyini təsdiqləyir.

**Yekun nəticə.** Tədqiqat nəticələri göstərir ki, Anarın dramaturgiyası yalnız ədəbi bağlılığı deyil, həm də ideya-məzmun yaxınlığını, milli-mənəvi dəyərlərin qorunmasını təmin edir. Pyesdə Mirzə Cəlilin ideyalarının aktual qalması, Anarın onların sosial və mənəvi təsirini 70 illik məsafədən yenidən oxucuya çatdırması əsərin əhəmiyyətini artırır. Beləliklə, "Sizi deyib gəlmişəm" əsəri yalnız keçmiş ədəbi irsin müasir oxucuya təqdimatı kimi deyil, həm də milli-mənəvi, sosial və ədəbi mesajları ilə ədəbiyyat tarixində özünəməxsus yer tutur.

**Ədəbiyyat**


1. Anar. Sizi deyib gəlmişəm. – Bakı: Azərnəşr, – 1984. – 245 s.
2. Həbibbəyli, İ. Ədəbi-tarixi yaddaş və müasirlik / İ.Həbibbəyli. – Bakı: Nurlan, – 2007. – 694 s.
3. Cəfərov, N. Ön söz, yaxud böyük yazıçının

yaradıcılıq yolu. Anar. Seçilmiş əsərləri / N. Cəfərov. – Bakı: Çaşıoğlu, – 2004. – 488 s
4. Rahid Ulusel. Milli mənəviyyatımız və Anar yaradıcılığı. Anar. Seçilmiş əsərləri. – Bakı: Lider, – 2004, – 416 s.

*Məqalə filologiya üzrə elmlər doktoru, professor Yusif Səfərov tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 24.04.2025, son daxilolma – 22.05.2025, qəbulolunma – 10.09.2025